*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 may 2019-cu il № 40 (2357) Qiyməti 30 qəpik


# Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçirilib



*Bu gün Azərbaycan dövlətinin suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin müdafiəsini təmin edən ordumuz ildən-ilə güclənir, möhkəmlənir, işğal altında olan torpaqlarımızı azad etmək üçün döyüş hazırlığını daim inkişaf etdirir. Ölkə və ordu rəhbərliyi XXI əsrin müharibələrində aparıcı rolun texnologiya və biliyin oynadığını nəzərə alaraq son illərdə ən yeni döyüş və nəqliyyat vertolyotları, təyyarələri, hava hücumundan müdafiə sistemləri, zirehli texnika, ən müasir artilleriya sistemlərini əldə edir, eyni zamanda, ordunu bilikli və hazırlıqlı zabit kadrlarla komplektləşdirir. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyət və ardıcıllıqla davam etdirdiyi mükəmməl strategiyaya əsasən, bu gün öz gücü və qüdrəti ilə seçilən, qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirmək imkanına malik olan Azərbaycan Ordusu dövlət müstəqilliyinin bərpasından ötən illər ərzində çətin sınaqlardan, od-alovdan keçib mətinləşib. Onun nəticəsidir ki, Ali Baş Komandan ordunun gücünü aşağıdakı kimi ifadə edir: "Azərbaycanda ordu quruculuğu işlərinə də çox böyük diqqət veririk. Son illərdə bu istiqamətdə çox böyük nailiyyətlər əldə edilib. Bizim artıq peşəkar ordumuz var. Ordunun döyüş qabiliyyəti çox yüksəkdir. Ordumuzun maddi-texniki bazası son illər ərzində yüksək dərəcədə gücləndirilibdir. Heç kim bu gün Azərbaycana döyüş meydanında öz iradəsini diktə edə bilməz".*

Ümummilli lider Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsas təminatçısına çevrilən Azərbaycan Ordusu bu gün istənilən istiqamət üzrə hazırlığını artırmağa xüsusi diqqət yetirir. Bu mənada son illər Azərbaycan Ordusunun inkişaf etdirilməsi istiqamətində atılan addımlar daha çox diqqət çəkir. Atılan addımların məqsədi, ordunun şəxsi heyətinin səfərbər olunmasına əsaslanaraq, çox sayda döyüş hazırlığı vahidləri ilə daha peşəkar bir orduya keçməkdir.

Son dövrlər ölkəmizdə strateji hərbi manevrlər təşkil edilir, təlimlər keçirilir, gələcəkdə baş tuta biləcək istənilən genişmiqyaslı müharibə şəraitində əməliyyatlar hazırlanır. Strateji təlimlərin keçirilməsi vacibdir. Vacibdir ona görə ki, təlimlər uğurlu keçirilərsə: ordunun rəhbərliyi ilə hərbi hissələr və onların şəxsi heyəti arasında öz vəzifələrini yerinə yetirmək qabiliyyətini göstərən əlaqələr hazırlanır; kadr hazırlığı, qərar qəbul edən qoşun növləri və qisimləri arasında qarşılıqlı təsir testi aparılır; döyüş şərtlərinə uyğun olaraq təchizat birləşmələrinin logistikası müəyyənləşdirilir.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçirilib



(Əvvəli 1-ci səhifədə)

Bütün bunlar silahlı münaqişədə zəfər üçün zəruridir və buna görə də uğurlu təlimlər hərbi əməliyyatların başlanması və keçirilməsinin əsl qabiliyyətini göstərir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçirilib.

Düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsi təlimin əsas mövzusudur.

Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub.

Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetirilib.

Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunub.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin rəhbərinin qəbul etdiyi qərara əsasən, qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, zərbə qruplaşmalarının yaradılması və müəyyən olunmuş istiqamətlərdə tətbiqinə hazır olması, cəbhə və ordu aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması da icra olunub.

Təlimin niyyətinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək tank bölmələri təyin edilmiş məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqlar yerinə yetirilib.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin növbəti mərhələsində plana uyğun olaraq qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar xəritələr üzərinə işlənilib.

Mürəkkəb radioelektron şəraitdə kəşfiyyat və digər orqanlardan əldə olunan və yerlərdəki komandirlərdən daxil olan məlumatlar xəritələrdə əks olunub.

Mövcud vəziyyətə uyğun hazırlanan məruzələr sərəncam şəklində icra edilməsi məqsədilə müasir rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri vasitəsilə komandir-rəis heyətinə çatdırılıb.

Eyni zamanda, səhra şəraitində yaradılan əsas komanda məntəqəsinin atəşlə zərərvurmanın planlaşdırılması qrupu tərəfindən döyüşün gedişində atəşlə təlafat verilməsini effektiv təmin etmək məqsədilə düşmənin mühüm hərbi hədəfləri seçildikdən, aviasiya, zenit-raket və artilleriya qurğuları, həmçinin digər atəşlə zərərvurma vasitələri arasında bölüşdürüldükdən sonra müvafiq komandalar qoşunlara ötürülüb.



Genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində poliqonlarda səhra şəraitində yaradılan təminat məntəqələrində fəaliyyətlər davam edib.

Müxtəlif məntəqələrdə döyüşə hazırlıq və döyüş əməliyyatları zamanı şəxsi heyətin ideoloji və mənəvi-psixoloji hazırlığı həyata keçirilib, onlara psixoloji yardım göstərilib, o cümlədən hərbi qulluqçulara beynəlxalq humanitar hüquq mövzusunda ilkin biliklər verilib.

Fəaliyyət göstərən səhra tibb məntəqəsində təcili və davamlı tibbi müdaxilə, döyüş travmasının qiymətləndirilməsi, təxliyə və digər tibbi tədbirlər praktiki icra olunub.

Təlimlər Müdafiə Nazirliyi rəhbərliyinin diqqət mərkəzindədir.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə rəhbərlik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti təlim məntəqələrinə baş çəkib.

Əsas komanda məntəqəsində general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən toplantıda dinamik dəyişən vəziyyət və qəbul edilən qərarlara dair komandir-rəis heyəti və digər vəzifəli şəxslərin məruzələri dinlənilib. Eyni zamanda, təlimlərin planına uyğun olaraq ərazinin kəşfi nəticəsində əldə olunan məlumatlar əsasında təlim iştirakçıları maket üzərində tapşırıqların dəqiqləşdirilməsi, qoşunların qarşılıqlı əlaqədə fəaliyyətlərinin təşkilini həyata keçiriblər.

Alınmış döyüş tapşırığı əsasında keçirilən bölmələrin məşqlərini izləyən Müdafiə naziri hərbi qulluqçular qarşısında çıxış edib, tövsiyələrini çatdırıb və xidmətdə fərqlənən bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim edib.

Bölmələrin döyüş atışlı taktiki məşğələsində şəxsi heyət müxtəlif maneələri dəf etməyi və düşmən üzərinə hücumun yerinə yetirilməsini nümayiş etdirib.

Ərazidə yaradılmış təlim nöqtələrinə, sinif otaqlarına baş çəkən Müdafiə naziri təlimə cəlb edilən döyüş texnikalarını da yoxlayıb, silah-sursat və şəxsi heyətin təlimlərdə iştirakı, eləcə də tapşırıq və sərəncamların dəqiq icra olunması ilə bağlı müvafiq göstərişlər verib.

Hərbi hissədə yeni tikilmiş yeməkxanada olan general-polkovnik Zakir Həsənov burada yaradılan şəraitlə tanış olub, ərzaq anbarına baxış keçirib, saxlanılan məhsulların keyfiyyətini yoxlayıb və şəxsi heyətlə birgə nahar edib.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə rəhbərlik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin ümumqoşun əməliyyatlarının aparılması zamanı fəaliyyətlərin təşkili üzrə qəbul edilən qərarlara dair məruzələri dinləyərək qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verib.

Genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində cəbhəboyu zonada olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti müxtəlif istiqamətlərdə yerləşən ön xətt bölmələrində olublar.



Müdafiə naziri bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayıb, Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən mövqelərini müşahidə edib və əldə olunan məlumatlara əsasən düşmənin törədə biləcək təxribat cəhdlərinin qarşısının bütün atəş vasitələrinin tətbiqi ilə dərhal alınması barədə də müvafiq tapşırıqlar verib.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərin gecə vaxtı döyüş atışlı mərhələsi keçirilib.

Bu mərhələdə qoşunlar düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsi tapşırıqlarını icra edib.

Mürəkkəb dağlıq relyef və radioelektron mübarizə, həmçinin təlimlərin niyyəti ilə müəyyən edilmiş digər xarakterik xüsusiyyətlər şəraitində keçirilən təlimlərdə qoşunların müasir ümumqoşun əməliyyatlarının keçirilməsinin müxtəlif üsullarının icrası üzrə bacarıq və vərdişləri praktiki olaraq təkmilləşdirilib, qoşunların və idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə effektiv tətbiqi həyata keçirilib.

Müxtəlif təlim poliqonlarında motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri, təyyarə və helikopterlər döyüş atışları, praktiki raket buraxılışları icra edib.

Döyüş atışlı mərhələnin yekununda hərbi qulluqçular qarşısında çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərin əhəmiyyətini qeyd edərək qoşunların peşəkarlığını və şəxsi heyətin hazırlığını yüksək qiymətləndirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin yekunlarına dair xidməti müşavirə keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, gecə vaxtı keçirilən genişmiqyaslı təlimlərin nəticələrini təhlil edərək Müdafiə naziri qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirildiyini bildirib. Nazir təlimlərin əhəmiyyətini qeyd edərək, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb.

General-polkovnik Zakir Həsənov regiondakı mövcud hərbi-siyasi vəziyyətə toxunaraq, Ermənistanda baş verən daxili siyasi qarşıdurmanın qoşunların təmas xəttindəki vəziyyətin gərginləşməsinə səbəb ola biləcəyini də xüsusi qeyd edib. Müdafiə naziri qoşunlara sərəncamda olan silahlardan istifadə etməklə düşmənin irimiqyaslı təxribatlarının qarşısını dərhal almağı tapşırıb.

Qüdrətli Azərbaycan Ordusunun olması hər bir Azərbaycan vətəndaşının arzusu idi. Artıq bu arzu deyil, reallıqdır. Bu gün ordumuzun qarşısında duran əsas vəzifə odur ki, Ali Baş Komandan əmr verərsə, torpaqlarımızı müharibə yolu ilə işğaldan azad etsin. Həm ordumuzun bugünkü vəziyyəti, həm də keçirilən təlimlər göstərir ki, Azərbaycan Ordusu tarixi vəzifənin öhdəsindən gəlməyə tam hazırdır. Azərbaycan Ordusu müstəqilliyimizi əbədi qorumaq, ərazi bütövlüyümüzü bərpa etmək gücündədir. Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir!

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU



*28 May Respublika Günüdür*

# “Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir”

Müstəqillik ideyası xalqın, millətin sabahlarını müəyyənləşdirən, sabahlar üçün ideoloji zəmanət olan məfkurədir. Xalqı xalq kimi bu məfkurə formalaşdırır. Min illik (min ildən də çox!) dövlətçilik tarixinə malik olan Azərbaycan Gülüstan və Türkmənçay müqavilələri ilə dövlət müstəqilliyini itirdi. Azərbaycanın ərazisi Rusiya ilə İran arasında bölündü, Araz çayı sərhədə çevrildi. Bu parçalanmanı Xalq şairi Bəxtiyar Vahabzadə "Gülüstan" poemasında olduqca heysiyyətlə, böyük vətəndaş-şair yanğısıyla ifadə etmişdir. Bu poema da təsdiqləyirdi ki, xalqın müstəqillik amalı işğal olunmayıb. Xalq dövlətçiliyini bərpa etmək uğrunda gizlin-aşkar mübarizə aparırdı. Tarix təsdiqləyir ki, dövlətçiliyini itirən xalq gec-tez yaşamını da itirir...



Xalqın tarixi mübarizəsini dövrün tarixi şəxsiyyətləri qələbəyə səfərbər edə bilir, edir. Mübarizənin məqsədi, niyyəti xalqı öz ətrafında sıx birləşdirir və mübarizə ümumxalq mübarizəsinə çevrilir. Ötən əsrin əvvəllərində belə bir mübarizə başladı və 1918-ci il mayın 28-də tarixə bir ad yazıldı: Azərbaycan Xalq Cümhuriyyəti.

1918-ci il mayın 28-də Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin birinci hökumət kabinəsini təşkil etməyi Milli Şuranın üzvü, bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. Milli Şuranın iclasında Fətəli xan Xoyskinin başçılığı ilə Cümhuriyyətin ilk hökuməti təsdiq edildi.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin ilk təsis iclası 1918-ci il dekabrın 7-də Bakıda Tağıyev qız məktəbində oldu. Azərbaycan parlamentinin qanunvericilik və mərkəzi dövlət orqanlarını formalaşdırmaq, onların səlahiyyətini müəyyən etmək funksiyasından başqa bu və ya digər orqanın hesabatını dinləyib, onlar haqqında müvafiq qərar qəbul etmək, eləcə də ali dövlət nəzarətini həyata keçirmək funksiyaları var idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdükdən sonra, 1918-ci il oktyabrın 6-da Fətəli xan Xoyskinin təşkil etdiyi ikinci hökumətdə dəyişikliklər edildi.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan Silahlı Qüvvələrinin təşkilinə Cümhuriyyətin elan edildiyi gündən başlanmışdı. Yeni yaradılacaq ordunun əsasını Müsəlman korpusu təşkil edirdi. Ordu quruculuğuna rəhbərlik üçün ilk hökumət kabinəsinin tərkibində Hərbi Nazirlik də nəzərdə tutulmuş və Xosrov bəy Sultanov Hərbi nazir təsdiq edilmişdi. Lakin bu kabinənin buraxılması ilə hərbi nazir vəzifəsi də ləğv edilmiş və Azərbaycanda ordu quruculuğu prosesinə rəhbərlik hökumətin qərarı ilə Qafqaz İslam Ordusunun komandanı Nuru Paşaya həvalə olunmuşdu.

Müstəqil dövlətin mühüm atributlarından biri olan dövlət dili məsələsi yenicə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin diqqət mərkəzində idi. Cümhuriyyət hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. Həmin qərar Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsindən sonra ana dilinin dövlət dili kimi işlədilməsinə aid ilk sənəddir. Qeyd edilməlidir ki, dövlət dili haqqında qərar hökumətin Gəncəyə köçdükdən sonra qəbul etdiyi ilk qərarlardan biridir.

Azərbaycan dilinin, sözün əsl mənasında, dövlət dili kimi işlənməsi təcrübəsi geniş şəkildə ilk Azərbaycan Parlamentinin dilində əksini tapmışdır. Dövlət idarələrində müəyyən müddət ərzində rus dilinin işlənməsinə də icazə verilməsi parlamentə aid deyildi. Ona görə də parlamentdə dillərin işlənməsi məsələsi, təbii olaraq, qanunverici hakimiyyətin, parlament üzvlərinin öhdəsinə buraxılmışdı. Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Qeyri-yerli parlament nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə, parlamentin iclaslarından birində bu məsələ ayrıca müzakirə olunmuş və bu xüsusda qərar qəbul edilmişdi. Qərara əsasən, parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin rus dilində çıxış etmələri məqbul hesab edilmişdi. Bununla belə, rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi.

Dekabrın 26-da Fətəli xan Xoyski üçüncü hökumət kabinəsinin proqramı və tərkibi barədə parlamentdə çıxış etdi. Müzakirələrdən sonra parlament Fətəli xan Xoyski hökumətinə etimad göstərdi. Hökumətdə Fətəli xan Xoyski Baş nazir portfeli ilə yanaşı, xarici işlər naziri vəzifəsini də tutdu. Üçüncü hökumət kabinəsində Səməd bəy Mehmandarov hərbi nazir vəzifəsini tutdu.

Azərbaycan Xalq Cümhuriyyəti Birinci Dünya müharibəsinin başa çatması ilə müşayiət edilən gərgin diplomatik mübarizə şəraitində yarandı və fəaliyyət göstərdi. Siyasi məzmunda Azərbaycan ideyasını dünyaya təqdim edənlər 1920-ci ildə diplomatik baxımdan bu ideyanın Versal Ali Şurası tərəfindən beynəlxalq təsdiqlənməsinə nail oldular. Məhz belə bir şəraitdə Azərbaycanın müstəqilliyinin 1920-ci ildə Versal Ali Şurası tərəfindən de-fakto tanınması 1919-cu ilin payızından etibarən dəyişən siyasi vəziyyətlə yanaşı, Azərbaycan diplomatiyasının mühüm uğuru, onun Paris Sülh Konfransındakı say etibarı ilə kiçik olan heyətinin böyük qələbəsi idi. Lakin Birinci Dünya müharibəsindən sonra formalaşan yeni geosiyasi proseslər Azərbaycan millətinin bu tarixi nailiyyətdən yetərincə faydalanmasına imkan vermədi. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində ölkə daxilində gedən siyasi proseslərin, məhəlli ziddiyyətlərin nəticəsi kimi deyil, dünya siyasətində baş verən mürəkkəb diplomatik çəkişmələrin nəticəsi kimi süqut etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu xalqın azadlıq, müstəqillik ideyalarını dondura bilmədi. Məfkurə qadağalara, təhlükələrə, təqiblərə üstün gəldi. "Azadlığı zərrə-zərrə, qram-qram istəməyən" (Xəlil Rza Ulutürk) xalq 1988-ci ildə açıq şəkildə ayağa qalxdı, "qoca vulkan oyandı" (Məmməd Araz). Rus imperiyasının dayaqları laxladı. Əsarət buxovu Azərbaycanda qırıldı; Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi.

Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Cümhuriyyətin gerbi, bayrağı və himni müstəqil Azərbaycanın da gerbi, bayrağı və himni oldu. Sələf-xələf mənəvi bağlılığı bərpa edildi və bu, tarixən pozulmayacaqdır...

Sonralar böyük tarixi şəxsiyyət, ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasını Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdi.

Azərbaycanın dövlətçiliyini itirmə təhlükəsi yarananda xalq təkidlə Ulu Öndəri hakimiyyətə tələb etdi. Bu tələb, bu tələbin nəticəsi olan qayıdış Azərbaycanı real təhlükədən xilas etdi. Qısa müddətdə Azərbaycanda neçə-neçə beynəlxalq müqavilə imzalandı ki, bunlar da dövlətin bütün sahələr üzrə dinamik inkişafına zəmin yaratdı.

Ulu Öndər Azərbaycan Ordusunu qısa müddətdə nizami ordu kimi formalaşdırdı. Horadiz əməliyyatı ordumuzun yüksək döyüş qabiliyyətinə malik olduğunu təsdiqlədi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bütün sahələr üzrə Ulu Öndərin siyasi kursunu uğurla davam etdirdi. İndi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Bu ordu 2016-cı ilin aprelində düşmənin irimiqyaslı təxribatlarının qarşısını aldı, əks-hücumla qısa müddətdə Lələtəpə, Bayraqtəpə kimi strateji əhəmiyyətli yüksəkliklər də daxil olmaqla min hektarlarla ərazi işğaldan azad edildi.

Son illərdə ordu quruculuğunda həyata keçirilən irimiqyaslı islahatlar ordunun döyüş və mənəvi-psixoloji hazırlığını yüksəltdi. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır.

Ordumuzun Aprel zəfəri, Günnüt qələbəsi, 2018-ci ildə Azərbaycan Ordusunun və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan paradlar təsdiqlədi ki, Azərbaycan Ordusu Böyük Qələbə qazanmağa, torpaqlarımızı işğaldan azad etməyə qadirdir...

Çağdaş Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin mənəvi varisidir və bu dövlətçilik əbədidir.

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

## “Anatolian Phoenix-2019” təlimlərinin yekun mərhələsi icra olunub



*Türkiyənin Konya şəhərində "Anatolian Phoenix-2019" beynəlxalq axtarış-xilasetmə təlimlərinin yekun mərhələsi icra olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərin son günündə helikopter ekipajları və axtarış-xilasetmə əməliyyatlarına cəlb olunan heyətlər müxtəlif epizodlar üzrə tapşırıqları icra ediblər.

Beynəlxalq təlimlərdə Azərbaycan Ordusunun 4 hərbi helikopteri və 60-a yaxın şəxsi heyəti iştirak edib.

## Hərbi hissədə görüş keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyevin rəhbərliyi ilə bir qrup müharibə veteranı, şəhid ailələrinin üzvləri və ictimaiyyətin nümayəndələri cəbhəboyu zonada yerləşən “N” hərbi hissəsini ziyarət edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin abidəsi önünə gül dəstələri qoyulub, Ulu Öndər və respublikamızın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğıdan, ordu quruculuğu istiqamətində həyata keçirilən uğurlu islahatlardan danışıblar.

Sonra qonaqlar hərbi hissədə yaradılmış şəraitlə tanış olublar. Tədbirin sonunda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya hədiyyələr təqdim olunub və xatirə şəkli çəkdirilib.

AZƏRBAYCAN ORDUSU

# Hərbi birlikdə komandir müavinləri ilə seminar keçirilib

*Təsdiq edilmiş döyüş hazırlığı planına əsasən, hərbi birliyin tabeliyində olan hərbi hissə, tabor və bölük komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinlərinin iştirakı ilə "Hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun qurulmasında ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərin rolu" mövzusunda seminar keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə nizam-intizamın yüksəldilməsi məqsədilə görülən işlər və perspektivlər barədə fikir mübadiləsi aparılıb, müvafiq təkliflər irəli sürülüb, bölmələrdə intizamın möhkəmləndirilməsi sahəsində həyata keçirilən fəaliyyətlər və bu sahədə ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavinlərinin üzərinə düşən vəzifələrdən danışılıb.

Müzakirələrdə Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin və Sumqayıt Hərbi Prokurorluğunun nümayəndələri iştirak ediblər.

# Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika keçiriblər.



# Ombudsman aparatı nümayəndələri döyüş bölgəsində yerləşən hərbi hissədə olublar

*Azərbaycan Respublikası Müdafiə nazirinin və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (OMBUDSMAN) birgə təsdiq etdikləri plana əsasən, "Ombudsman təsisatı və bu təsisatın hərbi qulluqçuların hüquqlarının müdafiəsi yönümündə apardığı işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar hərbi hissədə şəxsi heyətlə görüş keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Ombudsman aparatının Hərbi qulluqçuların hüquqi müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və Elmin Cəfərov insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı mühazirələr oxuyub və şəxsi heyəti maraqlandıran sualları cavablandırıblar.

# "Armen Qriqoryanın səsləndirdiyi sərsəm fikirlər gülüncdür"

*Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın səsləndirdiyi sərsəm fikirlər gülüncdür və onun hərb işində diletant olduğunu göstərir.*

AZƏRTAC xəbər verir ki, bu fikir Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın səsləndirdiyi fikirlərə münasibət bildirən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

Nazirliyin məlumatında bildirilib ki, nəinki Azərbaycanın işğal olunmuş əraziləri, hətta Ermənistanın bütün ərazisi tamamilə Azərbaycan Ordusunun bölmələrinin nəzarəti və müşahidəsi altındadır.

## Sıra hazırlığı

# Taqım, farağat!

*"Taqım, farağat! Yoldaş əsgərlər bugünkü məşğələmizin mövzusu - rəisə yaxınlaşmadır. Hərbi qulluqçu çağırış ilə rəisə yaxınlaşarkən iki-üç addım qalmış dayanır, ayağını saxlamaqla eyni vaxtda sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna yaxınlaşdırır və məruzə edir. Məsələn: "Cənab kapitan, əsgər İsmayılov əmrinizlə gəldi". Əsgər məruzə başa çatdıqdan sonra əlini aşağı salır. Hərbi qulluqçuya rəis tapşırıq verdikdən sonra isə, sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna yaxınlaşdıraraq "Oldu" cavabı verir, hərəkət istiqamətində dönür, birinci sol ayağını yerə qoymaqla əlini aşağı salır və hərəkəti səfər addımları və yaxud qaçaraq davam etdirir", - deyə əsgərlərimizə sıra hazırlığının sirlərini öyrədən zabitin gözlərindən peşəsinin vurğunu olduğu sezilirdi.*



Şəxsi heyət ilkin mərhələdə bəzi səhvlərə yol versələr də, taqım komandiri usanmadan onlara hərəkətləri yenidən göstərərək başa salır. Nəhayət, məşğələnin yekununda komandir istəyinə nail olur. Əsgərlər bir nəfər kimi bütün əmrləri dəqiq və cəld yerinə yetirirlər. Məşğələ bitdikdən sonra şəxsi heyətlə söhbət etmək üçün fürsət yaranır.

Kapitan Kənan Nəsirov ordumuza layiqli komandir olmaq onun uşaqlıq arzusu olduğunu bildirdi. "Hərbçi olmaq uşaq vaxtlarımdan qarşıma qoyduğum məqsəddir. Qərarımı valideynlərimə bildirəndə mənimlə fəxr etdiklərini və bu yolda sonadək məni dəstəklədiklərini bildirdilər. Gənc yaşlarımdan hərbi mundiri daşıyan zabit kimi əminliklə deyə bilərəm ki, nizam-intizam sıradan başlayır. İntizamlı ordunun döyüş ruhu da yüksək səviyyədə olur. Ordumuzun nizam-intizamı, döyüş qabiliyyəti və ruh yüksəkliyi Aprel döyüşlərində özünü sübut etdi.

Aprel döyüşlərində xidmət etdiyim bölmə Lələtəpə istiqamətində döyüşürdü. Qeyd edim ki, tabeliyimdə olanlar yalnız irəli getmək istəyir, düşməni törətdiklərinə görə peşman etmək arzusundaydılar. Unutmaq olmaz ki, belə hazırlığın arxasında keçirilən məşğələlər dayanır. Bu gün biz təhsil müddətində və praktikada mənimsədiklərimizi əsgərlərimizə öyrədirik. Gördüyünüz kimi, onlar da dərslərə məsuliyyətlə yanaşır, öyrədilənləri dərindən mənimsəməyə çalışırlar."

- Hərbçi olmaq, Vətənin keşiyində dayanmaq nə qədər çətin və məsuliyyətli vəzifə olduğunu uşaq vaxtlarımdan bilirəm. Atam Qarabağ müharibəsi veteranıdır. O, mənə müharibənin ağrılı-acılı illərindən, Vətənimizin azadlığı uğrunda qəhrəmanlıq göstərən igidlərimizin şücaətindən danışardı. Hərbi xidmətə yola salanda komandirlərimizin əmrlərini sözsüz, dəqiq və vaxtında yerinə yetirməyi tapşırdı. Əsgəri xidmətə başladığımız gündən komandirlərimiz bizə hər an döyüşə hazır, düşmənə qarşı qətiyyətli və prinsipial olmağı öyrədirlər. Bunun üçün peşəkarlığımızı daim artırmalıyıq. Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə ərazi bütövlüyümüzü bərpa etməyə hər an hazırıq, - bu sözləri əsgər Orxan Ağayev dedi.

Əsgər Amil İbrahimov keçirilən məşğələlərdən və asudə vaxtlarından səmərəli istifadə etdiklərini bildirdi. "Hamımız üzərimizə düşən vəzifənin məsuliyyətini başa düşürük. Müxtəlif ədəbiyyatlardan istifadə edərək hərbi biliklərimizi artırırıq. Komandirlərimiz də bu yolda köməkliklərini əsirgəmirlər. Onlar döyüş meydanında düşmənə qarşı amansız olmağı, Xocalıda törədilən vəhşiliklərin qisasını almağı öyrədirlər. Bu gün xalqımızın əsgərinə etimadı böyükdür, biz də bunu doğrultmalıyıq. Bunun üçün isə öz üzərimizdə işləməli, peşəkarlığımızı artırmalıyıq ki, döyüş əmri veriləndə ərazi bütövlüyümüzü bərpa edək".

Əsgərlərimiz Anar Möyləyev, Nicat İsmayılov, Rasim Məmmədov və digərləri ilə söhbət etdikcə onların nə qədər Vətənimizin vurğunu olduqlarını gözlərindən görməmək mümkün deyildi. Biz də əsgərlərimizə bu müqəddəs yolda uğurlar arzulayaraq, onlarla Böyük Qələbə günü görüşmək ümidilə sağollaşırıq.

**Baş leytenant,**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Şəhid Adil Tatarovun il mərasimi keçirilib

*Bir il əvvəl şanlı hərb tariximizə Günnüt zəfəri kimi yazılmış əməliyyat zamanı şəhidlik zirvəsinə ucalmış Azərbaycan Ordusunun əsgəri Adil Əli oğlu Tatarovun doğulub boya-başa çatdığı Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində il mərasimi keçirilib.*




Tədbirdə Müdafiə Nazirliyinin, Ağstafa rayon İcra Hakimiyyətinin rəhbərliyinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmiləri, hərbi qulluqçuların, veteranların, rayon ictimaiyyətinin və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Anım mərasimində çıxış edən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, nazirliyin zabiti polkovnik Abdulla Qurbani şəhidin valideynlərinə bir daha Müdafiə Nazirliyi rəhbərliyinin başsağlığını çatdırıb. A.Qurbani bildirib ki, Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası sahəsində düşmən tərəfinin növbəti təxribatının qarşısını alarkən, döyüş tapşırığını yerinə yetirən zaman şəhid olmuş hərbi qulluqçu əsgər Tatarov Adil Əli oğlu ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Vətən uğrunda", Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Şücaətə görə" medalları ilə təltif olunub. Şəhidlik zirvəsini fəth edən digər igid oğullarımız kimi qəhrəman döyüşçü Adil Tatarovun da xatirəsi daim əziz tutulur, ehtiramla yad edilir.




Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun yalnız bir şəhid verdiyi ötən il mayın 20-27-də keçirilən Günnüt əməliyyatı 2016-cı ilin Aprel döyüşlərindən sonra ordumuzun ən uğurlu əməliyyatıdır. Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi 26 illik işğaldan sonra azad edilib, Ağbulaq yüksəkliyi, Qızılqaya, Qaraqaya dağları, Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçib. Döyüşlər nəticəsində 11 min hektarlıq ərazi İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yolunun Azərbaycan Ordusunun nəzarətdə saxlamasına imkan verib. Bundan sonra ərazinin etibarlı müdafiəsi və təminat məqsədilə on kilometrlərlə yeni yol çəkilib, yararsız yollar isə bərpa edilib. Strateji əhəmiyyətli Arpaçay dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub.

Mərasimdə vurğulanıb ki, Günnüt zəfəri Ermənistanda gözlənilməz şok effekti yaradıb, düşmənə fiziki və psixoloji zərbə vurub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ötən il keçirilən möhtəşəm hərbi paradda böyük iftixar hissi ilə qeyd edib: "Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Bir daha onu göstərdi ki, biz istənilən vəzifəni icra edə bilərik və icra edirik, böyük məharətlə və peşəkarlıqla".

Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev ölkədə şəhid ailələrinin, müharibə veteranlarının və döyüşlərdə sağlamlığını itirmiş hərbi qulluqçuların hərtərəfli diqqət və qayğı ilə əhatə olunduğunu qeyd edib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin təsdiq etdiyi plana əsasən, mayın 20-dən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə başlanan Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimlər barədə danışaraq bütün ağstafalıların da ordumuza dəstək nümayiş etdirdiklərini söyləyib. Qeyd olunub ki, təlimlərə 10 mindən çox şəxsi heyət, 150 tank və zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub. Bu təlimlər bir daha ordumuzun gücünü, qüdrətini, peşəkarlığını artırır və gələcək yeni-yeni uğurlara zəmin yaradır. Bütün xalqımız kimi hər bir ağstafalı da əmindir ki, işğal altında olan digər torpaqlarımız da tezliklə azad ediləcək və respublikamızın ərazi bütövlüyü bərpa olunacaq.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı şəhidliyin müqəddəs bir zirvə olmasından, şəhidlərin ölməzliyindən bəhs edib. O, müqəddəs Ramazan ayına təsadüf edən mərasimin iştirakçılarına, şəhid ailələrinə səmimi arzularını çatdırıb. Ordu ilə xalqın mənəvi birliyindən danışan S.Salahlı xalqımızın bundan sonra da "Hər şey Ordu üçün, hər şey Qələbə üçün!" şüarına qoşulacağına və torpaqlarımızın işğalına son qoyulacağına ümidvar olduğunu bildirib.



Ağstafa rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli çıxışında şəhid ailələrinə, veteranlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Qıraq Kəsəmən kənd tam orta məktəbinin müəllimi Turan Yaqubəliyev sevimli şagirdi haqqında xatirələrini bölüşüb.

Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü, "Şöhrət" ordenli Tariel Qasımov, hərbi qulluqçulardan polkovnik-leytenant Vüqar Allacov, mayor Orxan Rüstəmov və şəhidin silahdaşlarından Naxçıvandan gəlmiş zabit kapitan Emil Məmmədov Azərbaycan Ordusunun Ali Baş Komandanın hər bir əmrinə hazır olduğunu bəyan ediblər.

Şəhidin atası Əli Tatarov daim diqqət və qayğı ilə əhatə olunduqlarını vurğulayıb, ailə üzvləri adından minnətdarlığını bildirib.

Sonra mərasim iştirakçıları kənd qəbiristanlığına gedərək şəhidin məzarını ziyarət edib, məzarı önünə çələng və gül dəstələri qoyublar.

Şəhid Adil Tatarovun il mərasimi ilə bağlı ehsan süfrəsi açılıb, dualar oxunub, evində təşkil edilən xatirə guşəsinə baxış olub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası keçiriləcək

*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü ilə 26 İyun Silahlı Qüvvələr Gününədək davam etdiriləcək "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası keçiriləcək.*

AZƏRTAC xəbər verir ki, aksiya çərçivəsində UNEC-də, eləcə də Müdafiə Nazirliyinin birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində "Heydər Əliyev və Azərbaycan Ordusu", "Azərbaycanda ordu quruculuğunun İlham Əliyev mərhələsi", "Azərbaycanda ordu quruculuğunun aktual məsələləri" mövzularında mühazirələr oxunacaq. Həmçinin "Ordumuz qürurumuz, xalqımız dayağımız", "Hər şey Ordu üçün, hər şey Qələbə üçün!", "Müsəlləh əsgərəm mən də bu gündən", "Vətənin polad sipəri - Azərbaycan əsgəri" adlı kütləvi vətənpərvərlik tədbirləri, əsgər, zabit və kursantlarla görüşlər, dəyirmi masalar, filmlərin nümayişi, kitabların müzakirələri təşkil olunacaq. Bununla yanaşı, cəbhəboyu zonalarda, ön xətt bölmələrində universitetin müəllim və tələbələri polad dəbilqə, əsgər libası geyinərək igid Vətən müdafiəçiləri ilə birlikdə rəmzi döyüş növbəsində dayanacaq, şəxsi heyətin mədəni-asudə vaxtının səmərəli təşkilində yardımçı olacaqlar.

Artıq UNEC-in professor-müəllim və tələbə heyətinin Azərbaycan əsgərinə müraciəti qəbul edilərək nəfis kitabça şəklində çap olunub. Hər bir əsgərə paylanacaq bu cib kitabçaları Azərbaycan əsgərinin döyüş ruhunu, vətənpərvərlik hissini daha da yüksəldəcək, işğal altında olan torpaqlarımızın tezliklə azad ediləcəyinə inamını daha da artıracaq, Ali Baş Komandanın hər an hazır Azərbaycan əsgərinə mənəvi dəstək olacaq.

Döyüşlərdə, təlimlərdə və hərbi xidmətdə fərqlənən hərbi qulluqçular üçün xüsusi sovqatlar, mükafatlar və döş nişanları da hazırlanıb. Hərbi hissə kitabxanalarına kitab dəstləri, zəruri təşviqat vasitələri hədiyyə ediləcək.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin başa çatdığı gün - mayın 24-də UNEC-in rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradovun başçılığı ilə aksiya iştirakçılarının ilk qrupu respublikanın qərb bölgəsinə yola düşüb. Cəbhəboyu bölgədə xidmət keçən Azərbaycan Ordusunun əsgərlərini bir-birindən rəngarəng vətənpərvərlik tədbirləri, maraqlı görüşlər gözləyir.

"Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının birinci qrupuna Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani müşayiət edəcək.

AZƏRBAYCAN ORDUSU

# Bakıda Azərbaycan və Belarus arasında hərbi inspeksiya sahəsində əməkdaşlığa dair işçi görüşü keçirilib

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Belarus Respublikasının Müdafiə Nazirliyi arasında imzalanmış 2019-cu il üçün ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Bakıda hər iki ölkənin hərbi inspeksiya üzrə ekspertləri səviyyəsində işçi görüşü keçirilib.*



Mayın 24-də Müdafiə Nazirliyi Baş Hərbi İnspeksiyasının rəisi general-mayor Zakir Ağayev ölkəmizdə səfərdə olan belaruslu həmkarı general-mayor İvan Boquslavskinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tərəflər hərbi inspeksiya sahəsində əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıb, əlaqələrin daha da inkişaf etdirilməsi imkanlarını müzakirə ediblər.

# "Ermənistanda həyata keçirilən siyasət tam iflasa uğrayıb"

Azərbaycan bu gün regionda, dünyada müstəqil siyasət aparan ölkədir. Belə ölkələrin sayı azdır. Ermənistan özünü müstəqil dövlət elan etsə də, bu, belə deyil.

AZƏRTAC xəbər verir ki, bu fikirləri mayın 24-də jurnalistlərə müsahibəsində Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, Ermənistan nə xarici, nə daxili, nə də iqtisadi-sosial siyasətində müstəqil addım ata bilmir. Aparılan araşdırmalar göstərir ki, hər il 100 mindən çox insan Ermənistanı tərk edir. Ölkəni tərk edənlərin böyük hissəsi gənclərdir.

"Doğrudan da Ermənistandakı sosial vəziyyət acınacaqlıdır. Ermənistan ordusunda, siyasi rəhbərliyində qarşıdurmalar var. Bu qarşıdurmalar daha da dərinləşir. Bu baxımdan, Ermənistanda seçki qabağı verilən vədlərin heç bir faizi də yerinə yetirilməyib və bundan sonra da yetirilməyəcək. Çünki orada peşəkar siyasətçilər və işi bilənlər yoxdur. Populizmlə heç bir məsələni həll etmək olmaz. Ortada real iş olmalıdır. Real iş isə yoxdur", - deyə S.Novruzov vurğulayıb.

Ermənistanın xarici siyasətinin də bərbad vəziyyətdə olduğunu söyləyən S.Novruzov qeyd edib ki, N.Paşinyan hər ölkədə fərqli fikirlər səsləndirir. Ona görə də Ermənistanın xarici siyasəti uğursuzluğa düçar olub. Ordudan yayınmalar həddindən artıq çoxdur. Valideynlər öz uşaqlarını Azərbaycan ərazisində xidmət etməyə göndərmirlər. Sual qoyurlar ki, Dağlıq Qarabağ və ətraf ərazilərdə uşaqlarımızın nə işi var? Odur ki, Ermənistanda həyata keçirilən siyasət tam iflasa uğrayıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**22 may 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Novruzlu, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**23 may 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Mərzili, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**24 may 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Bala Cəfərli kəndində və adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Cəvahirli, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Heç kim unudulmur*

# Qəhrəmanlıq qürur dastanıdır



Bərdə və Sabirabad rayonlarında Azərbaycanın Milli Qəhrəmanı Səfiyar Behbudovun xatirəsinə həsr olunmuş "Qəhrəmanlıq zirvəsi" sənədli filminin və "Qürur dastanı" kitabının təqdimati keçirildi. Hər iki rayonun və Mədəniyyət Nazirliyinin birgə reallaşdırdığı tədbirlər qürurverici anlarla yadda qaldı.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların döyüş yoluna qiymət verərək deyirdi: "Sizin qəhrəmanlığınız bu gün həyata atılan, orduda xidmətə gedən və hərbi xidmətə hazırlaşan gənclər üçün örnəkdir, nümunədir. Vətən yolunda canlarını qurban vermiş, şəhid olmuş Azərbaycanın Milli qəhrəmanlarının həyatı, onların qəhrəmanlığı bütün xalqımız üçün, o cümlədən, xüsusən gənclərimiz üçün örnəkdir, dərsdir."

Qəhrəmanın xatirəsinə həsr edilən silsilə tədbirlər doğulduğu Bərdənin Mollalı kənd qəbiristanlığındakı məzarının ziyarəti ilə başladı. Sonra tədbir iştirakçıları qəhrəmanın adını daşıyan Bərdə şəhər 6 saylı orta məktəbinə gələrək şəhid məzunun xatirəsinə həsr olunmuş kitab sərgisi və guşəylə tanış oldular. Xatirə tədbiri 1 saylı uşaq incəsənət məktəbində davam etdi.

Mədəniyyət Nazirliyinin, Bərdə rayon İcra Hakimiyyətinin, Bərdə Regional Mədəniyyət İdarəsinin, ictimaiyyət nümayəndələrinin, müharibə veteranlarının, qazilərin, əsgərlərin, tələbələrin, müəllim və şagird kollektivinin iştirak etdiyi şəhid Milli Qəhrəman Səfiyar Behbudovun xatirə tədbirini açıq elan edən Bərdə rayon İcra Hakimiyyəti başçısının müavini və Yeni Azərbaycan Partiyasının Bərdə rayon Təşkilatının sədri Fəqət Şadlinskaya çıxışında ulu öndər Heydər Əliyevin şəhid ailələrinə, Milli Qəhrəman ailələrinə göstərdiyi diqqət və qayğısının bu gün ölkə Prezidenti tərəfindən davam etdirildiyindən bəhs etdi. F.Şadlinskaya hər bir bərdəlinin fəxr etdiyi qəhrəmanın döyüş yolundan danışdı. "Xocalı soyqırımından sonra Bərdə özünümüdafiə batalyonuna daxil olan Səfiyar Behbudov cəbhənin ən qaynar nöqtələrində erməni quldurlarına qarşı mərdliklə döyüşürdü. O, Ağdam, Tərtər uğrunda gedən ən ağır döyüşlərdə iştirak etdi. 1992-ci il martın 21-də erməni vəhşiləri yaralı vəziyyətdə əsir götürülən Səfiyara olmazın işgəncələri veriblər. Bu işgəncələrə mərdliklə dözən Səfiyar düşmənə heç bir hərbi sirr vermir. Onun Vətənimizin azadlığı, torpaqlarımızın müdafiəsi uğrunda apardığı mübarizə bu gün hər bir Azərbaycan gəncinə nümunədir".




Mədəniyyət Nazirliyinin nümayəndəsi Almaz Soltanzadə, "Qəhrəmanlıq zirvəsi" adlı sənədli filminin ssenari müəllifi və rejissoru Kəmalə Musazadə, "Qürur dastanı" kitabının müəllifi Azər Hacıbəyli belə filmlərin hazırlanmasının və kitabların nəşrinin vacibliyini qeyd etdilər, onların gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını diqqətə çatdırdılar. Bildirildi ki, Prezident İlham Əliyevin sərəncamına əsasən, Mədəniyyət Nazirliyinin "Kinosalnamə" studiyası 80 nəfər Milli Qəhrəman haqqında sənədli film çəkib, bu sahədə işlər davam etdirilir. "Qürur dastanı" qəhrəmana həsr edilən dəyərli poemadır.

Şəhid qəhrəmanın bacısı Naibə Behbudova çıxışında ailəsi adından tədbirin təşkilatçılarına, filmdə zəhməti keçən hər kəsə minnətdarlığını ifadə etdi və qardaşı ilə bağlı maraqlı xatirələrdən danışdı.

Tədbirin sonunda "Qəhrəmanlıq zirvəsi" sənədli filmi nümayiş olundu, "Qürur dastanı" əsərindən parçalar söylənildi.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# "İdmanla həvəslə məşğul oluruq"



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyət günün nizam qaydasına uyğun olaraq fiziki hazırlıqla məşğul olurdu.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Vüsal Bayramov şəxsi heyətə keçirilən dərs və məşğələlərdən ətraflı söhbət açdı.

- Təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyətə məşğələ keçir, hərb bilik və vərdişlər aşılayırıq. Şəxsi heyət fiziki hazırlıq məşğələsində də fəal iştirak edir. Əsgərlərimiz yaxşı dərk edirlər ki, yüksək döyüş və fiziki hazırlıq qələbəni şərtləndirən amillərdəndir. İdmana böyük maraq göstərən əsgərlərimiz ordu üzrə keçirilən yarışlarda da fəal iştirak edir, hərbi hissəmizin idman şərəfini ləyaqətlə qoruyurlar.

Kiçik çavuş daha sonra söhbətinə davam edərək bildirdi ki, fiziki hazırlıq məşğələsi üçün hərbi hissəmizdə hərtərəfli şərait var. Məşğələlər əsasən bir çox müasir qurğulara malik idman şəhərciyində və maneələr zolağında keçirilir. Bu şərait şəxsi heyətə yetərincə məşğələ keçməyə, onların fiziki hazırlıqlarını artırmağa imkan verir. Əsgərlərin dərslərdə həvəslə iştirak etməsi məşğələlərin daha da səmərəli olmasını təmin edir. Məşğələlərdə fəal iştirak edən əsgərlər getdikcə daha çevik və cəld olurlar. Xidmətlərində uğurlar qazanırlar.

İdman şəhərciyində məşq edib hazırlıqlarını artıran əsgərlərlə də söhbət etdik.

Əsgər Xəyal Abulov dedi ki, hərbi xidmətə çağırıldıqdan sonra idmanla məşğul olmağa başlayıb. "Yeri gəlmişkən, hərbi hissəmizdə əsgərlərin fiziki hazırlığına çox ciddi fikir verilir. Dərslər və məşğələlər vaxtlı-vaxtında keçirilir. Biz məşğələlərdə fəal iştirak edir, döyüş və fiziki hazırlığımızı artırırıq. İndi əminliklə deyə bilərəm ki, hər birimizin fiziki hazırlığı yüksək səviyyədədir".

- Komandirlərimizin rəhbərliyi ilə keçirilən fiziki hazırlıq məşğələsinin sayəsində idman artıq hər birimizin həyat tərzinə çevrilib. Güclü və dözümlü olmağımız üçün komandirlərimiz əllərindən gələni əsirgəmirlər.



Hər bir idman fənnini uğurla həyata keçirmək üçün bilik və bacarıqlarını bizimlə bölüşürlər. İstəklərimizi də həmişə nəzərə alırlar. İdmana olan həvəsimiz çoxalıb, fiziki imkanlarımız da gündəngünə artır. Hərbi xidmətdən sonra da idmanla məşğul olmağa davam edəcəm. Çox istəyirəm ki, idman yarışlarında iştirak edim, Vətənimin üçrəngli bayrağını xarici ölkələrdə dalğalandırım, - əsgər Yaşar Mustafayev belə dedi.

Əsgərlərdən Hüseyn Kazımov, İsmət Ələkbərzadə, Pərviz Cəfərzadə, Kamran Məhərrəmov, Natiq Nuruşov və digərləri də hərbi xidmətlərindən, fiziki hazırlıq məşğələlərində fəal iştirak etmələrindən və idmana olan maraqlarından danışdılar, qətiyyətlə dedilər ki, idman hər birimizin həyat tərzidir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

*Əsgər dostluğu*

# "Yaxşı dost arzulayan yaxşı dost olmalıdır"

Gürcü şairi Karlo Kaladzenin misrasıdı...

İnsanın həyatda qazandığı ən böyük nailiyyətlərindən biri dostluqdur. Dostluq mehribanlığın, səmimiyyətin sarsılmaz bağıdır. Təsadüfi deyil ki, dostluq qırılmaz zəncirlə müqayisə edilir. Hərbi xidmət dövründə yaranan dostluqlar isə daha möhkəm və uzunmüddətli olur. "N" hərbi hissəsində xidmət edən əsgər Qorxmaz Umudovla əsgər Kərim Heydərovun dostluğu sübut edir ki, bu gün əsgərlərimizin arasındakı hörmət, qardaşlıq bağları çox güclüdür. Əslində bu dostluq münasibətinin əsasında adət-ənənəyə hörmət, elinə-obasına bağlılıq, əqidə, məfkurə birliyi, Vətən sevgisi dayanır. Belə dostluqlar hər zaman möhkəm, qırılmaz və sarsılmaz olur.

"Dostluq nədir?" sualına cavab olaraq əsgər Qorxmaz Umudov bildirdi ki, dostluq fədakarlıqdır. "Validеynlərim həmişə mənə dünyanın ən böyük yatırımının dost olduğunu deyirdilər. Əvvəllər onların dedikləri fikrin fərqinə varmasam da, böyüdükcə nə qədər haqlı olduqlarını anladım. Bu gün mənim çoxlu dostlarım var. Bizim aramızda qarşılıqlı səmimiyyət və hörmət hökm sürür. Ən şirin xatirələrim dostlarımla keçirdiyim anlarla bağlıdır. Həmişə dostlarımı və aramızda olan dostluğu qorumağa çalışıram. Məni hərbi xidmətə yola salanda dedilər ki, tezliklə onlar da Vətənimizi qoruyan igidlərimizin sıralarına daxil olacaqlar. Burada mən özümə Kərim kimi mərd, qorxmaz, Vətənini canından çox sevən dost qazandım. O, ilk gündən hərbi vərdişlərə yiyələnməkdə mənə köməklik göstərir. Asudə vaxtlarında məşğələlərdə öyrəndiklərimizi təkrarlayır, müxtəlif məsələləri müzakirə edirik. Çox vaxt dostumla döyüş növbətçiliyini birgə aparırıq. Bu, məni daha da ruhlandırır."



- Uşaq bağçasından başlayaraq bir çox insanlarla ünsiyyətdə oluruq, - deyə əsgər Kərim Heydərov söhbətə başladı. - Ancaq onların hamısına dost demək olmaz. Həqiqi dostluq illərin sınağından çıxır, bərkdəbosda, həyatın enişli-yoxuşlu yollarında sınanılır. Uşaq bağçasından, məktəbdən yalnız bir neçə həqiqi dost qazanmaq olur. Onlar hər zaman yanında olur, səni çətin vəziyyətdə tək qoymurlar. Kimlər həyatımıza gəlsə də, dostlarımızın yeri heç vaxt dəyişməyərək qalır. Mənim üçün illər keçsə də, belə qalacaq. Bəlkə də belə düşündüyüm üçün, illərdir dostluqlarım davam edir. Hesab edirəm ki, dostluğa nə qul, nə ağa lazımdır. Dostluq bərabərliyi sevir. Əsgərlik dostluğu isə ömürlük olur. Düşmənlə üzbəüz dayananda Vətən sevgisinə, dövlətçiliyimizə, dövlətimizə, bir də dostlarına güvənirsən. Mənim Qorxmaza güvənim sonsuzdur. Səngərdə hər an onunla birgə Ali Baş Komandanın "İrəli" əmri ilə düşməni işğal altındakı torpaqlarımızdan qovub çıxarmağın arzusu ilə yaşayırıq. Torpaqlarımızın harayına yetişməliyik. Hər günə döyüşə gedirik kimi hazırlaşırıq. İnanıram ki, Qorxmaz Umudovla çiyin-çiyinə döyüşə gedəcəyim gün uzaqda deyil. Tezliklə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal olunan torpaqlarımızı azad edəcəyik."

Əsgərlərimizin arasında bu cür səmimi, mehriban və dostluq, qardaşlıq münasibətlərini görmək bizi çox sevindirdi. Vətən sevgisi onları bir-birlərinə daha möhkəm bağla birləşdirib. Bu igid dostların sədalarının Şuşadan, Laçından, Zəngilandan... gəlməsini arzulayırıq.

**Baş leytenant,**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyəli hərbçilər S-400-lərin istifadəsi üzrə təlimlərə başlayır



Türkiyənin Müdafiə naziri Hulusi Akar S-400 zenit-raket komplekslərinin istifadəsi üzrə təlimlər keçmək üçün Ankaranın Rusiyaya hərbçilər göndərdiyini bildirib.

Bu barədə "Milliyet" qəzetində xəbər verilir.

"Biz öz hərbçilərimizi S-400 zenit-raket komplekslərinin istifadəsi üzrə təlim keçmək üçün Rusiyaya göndərmişik. Təlimlər bir neçə ay davam edəcək. Personalın sayı daim dəyişəcək, hər birinin öz xüsusiyyəti var", - deyə hərbi qurumun rəhbəri bildirib.

### Levan İzoria: Gürcüstanda ABŞ hərbi bazasının olmasını alqışlayıram



Gürcüstan ilə ABŞ arasında münasibətlər çox yüksək səviyyədədir. Biz hərbi sahədə də səmərəli əməkdaşlıq edirik. Bu baxımdan mən gələcəkdə Gürcüstanda ABŞ hərbi bazalarının olmasını alqışlayıram.

Bunu Gürcüstanın Müdafiə naziri Levan İzoria mətbuata açıqlamasında söyləyib.

Nazir Prezident Salome Zurabişvilinin ABŞ-ın hərbi bazasının Gürcüstan ərazisində yerləşdirilməsinin məqsədəuyğun olmaması ilə bağlı fikrini şərh etməyib. O, jurnalistin bununla bağlı sualına cavab verməkdən imtina edib.

Gürcüstanın Müdafiə naziri ölkəsinin ABŞ ilə hərbi sahədə sıx əməkdaşlıq etdiyini vurğulayıb. Bildirib ki, bu ilin sonunda Gürcüstan ilə ABŞ arasında imzalanacaq çərçivə sazişi hərbi əməkdaşlığın daha da dərinləşdirilməsində mühüm rol oynayacaq.

### Türkiyədə daha bir təhlükəli PKK terrorçusu həbs olunub



Türkiyənin Giresun vilayətinin Güce rayonu ərazisində daha bir təhlükəli terrorçu təhlükəsizlik qüvvələri tərəfindən yaxalanıb.

"Aras Faraşin" ləqəbli PKK terrorçusu Aras Aslan Türkiyənin Daxili İşlər Nazirliyi tərəfindən axtarışda olub.

### Əfqanıstanda partlayış nəticəsində azı 8 nəfər həlak olub



Əfqanıstanın Qəzni əyalətində törədilən partlayış nəticəsində azı 8 nəfər həlak olub, 17 nəfər yaralanıb.

Bu barədə əyalət qubernatorunun nümayəndəsi Arif Nuri deyib.

İnsident Qəzni əyalətinin eyni adlı inzibati-rativ mərkəzində baş verib. Partlayıcı qurğu "Humvee" markalı avtomobildə quraşdırılıb. Polis dayanmaq barədə əmrə tabe olmayan kamikadzenin idarə etdiyi avtomobili raket atəşinə tutub. İlkin məlumata görə, həlak olanların dördü hücum edən silahlılar, ikisi təhlükəsizlik qüvvələrinin əməkdaşı, ikisi isə mülki şəxsdir.

### Ukrayna silahlı qüvvələrinin 8 hərbçisi əsir düşüb



Bu gün Ukrayna silahlı qüvvələrinin 8 hərbçisi ölkənin müharibə gedən bölgəsində əsir düşüb.

Bu barədə Ukrayna Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata görə, hərbçilər müəyyən olunmuş marşrut üzrə hərəkət edərkən yolu səhv salıblar, nəticədə silahlılar tərəfindən əsir götürülüblər. Hərbçilərin geri qaytarılması üçün müvafiq işlər görülür.

**AZƏRTAC-ın materialları əsasında**

## Ana

Elə ki, balalar gəlir dünyaya,
O gündən hey ölçüb biçir analar.
Mahnı da oxuyur, şeir də deyir,
Bəstəkar analar, şair analar.

Dözür hər əzaba o bilə-bilə .
Yaşayır, sirrini salmadan dilə.
Vaxt olur, qaldırıb ağını belə,
Şərbət əvəzinə içir analar.

Unudub illərin yorğunluğunu,
Həyatda dincliyi, evdə yuxunu:
Sevincin azını, qəmin çoxunu,
Yükün ağırını seçir analar.

Özüm də bilmirəm Hüseyn, niyə?
Başımın tüstüsü çəkilir göyə.
Torpağım anasız qalmasın deyə
Torpağın qoynuna köçür analar.

## Ağac yenə ağacdır

Çapıb budaqlarını
Qabığını soyma sən.
Çox yemisən barını,
O ağaca qıyma sən.

Çiçəyini qoxlayıb
Çox batmısan ətrinə.
Amandır belə vaxtda
Belə dəymə xətrinə.

Baharda çiçəkləyib
Gülməsi yadındamı?
Zənbil-zənbil dərdiyin
Meyvəsi yadındamı?

Yadındamı balalar
Kölgəsinə qaçardı
Quşlar da səhər-səhər
O tərəfə uçardı?

Dünənki əhdi bu gün
Daşa çalmaq düzdümü?
Qocalıb, qarğıyanı
Gözdən salmaq düzdümü?

Bəlkə nəyəsə möhtac,
Bəlkə su üçün acdır?!
Barlı-barsız həyatda
Ağac yenə ağacdır.

## Qədim Gəncə çinarları

Bir-birinə dayaq olur,
Qədim Gəncə çinarları.
Axşam-səhər oyaq olur
Qədim Gəncə çinarları

Yeri öpər, göyü qucar,
Meh toxunar, ətir saçar,
Kölgəsini dosta açar,
Qədim Gəncə çinarları.

Vaxt dolanar fəsil-fəsil,
Dözümdə dağ, çəkimdə fil,
Hər küləkdən qopan deyil,
Qədim Gəncə çinarları.

Pıçıldaşan yarpaqları,
Nəğmə deyən dodaqları,
Necə oxşar bulaqları
Qədim Gəncə çinarları.

Çay boyu qatar-qatardı,
Əsrlərdən yadigardı,
Dünya görmüş babalardı
Qədim Gəncə Çinarları.

## Şeir deyilmi?

Məndən təzə şeir xəbər alan dost,
Bəs yazın gəlməsi şeir deyilmi?!
Gəzməyə çıxanda - çölün, çəmənin
Üzünə gülməsi şeir deyilmi?!

Yenə gözüm qalıb bağçada, bağda,
Min-min gül açıldı aranda, dağda.
Eyvana əyilən çarpaz budaqda
Bülbülün nəğməsi şeir deyilmi?!

Seyr elə hüsnünü göydə durnanın.
Qayada kəkliyin, göldə sonanın,
Aynabənd otaqda gəlin ananın
Şirin laylay səsi şeir deyilmi?!

*Könlüm şeir istəyir*

# “Dağlarda açdım səhəri...”

*Xalq şairi Hüseyn Arifin yaradıcılığını şərtləndirən başlıca amil səmimiyyətdir.*

*Hüseyn Arif könül şairi idi... Hüseyn Arifin şeirləri çiçək ləçəyində şeh kimidi, bu ləçəkləri titrədən meh kimidi. Onun şeirlərinin mahiyyəti də, şeiriyyəti də yaz yağışından sonra göy üzünə yayılan qövsi-qüzeh kimidi... Hüseyn Arifin şeirləri azərbaycançılıq ideologiyasının poetik görüntüsüdü; şeirlərinin əksəriyyətində xalqın nəfəsi duyulur... Hüseyn Arifin şeirləri sevgi andı kimi oxunur, dərk edilir... Hüseyn Arifin poeziyası yaşarı poeziyadı, bu poeziya sazsöz dünyasının Dan ulduzudu...*

**"Azərbaycan Ordusu"**

Dərədə moruq dər, döşdə çiyələk.
Gah yağış xoş gəlir, gah sərin külək.
Yaş ötür, doymayır dünyadan ürək,
Yaşamaq həvəsi şeir deyilmi?!

Kim deyir şeirin meydanı dardır?
Sonu görünməyən bir ilk bahardır.
Necə ki, həyat var şeir də vardır,-
Həyatın nəfəsi şeir deyilmi?!

## Ürək deyir: Yaşa hələ

Səfərdəyəm, səfərimi
Vurmamışam başa hələ.
Arzularım, əməllərim
Toxunmayıb daşa hələ.

Dolanıb kəndi, şəhəri,
Dağlarda açdım səhəri.
Fikrim gəzir üfüqləri
Dönüb qızıl quşa hələ.

İlləri yola salmışam,
Şeir yazıb, saz çalmışam
Ömür deyir: - Qocalmışam,
Ürək deyir: - Yaşa hələ.

## Xatırla məni!

Sevirəm çəməndə gülü-çiçəyi,
Gələndə ilk bahar xatırla məni!
Öpsün alınları dağlar küləyi,
Güləndə rüzigar xatırla məni!

Fəsillər dolanıb, ötdükcə zaman,
Vaxt olur həyatda dəyişir insan.
Mən səni unudan deyiləm, inan,
Sən də, ey gözəl, xatırla məni.

## Sən dərsə gəlməyəndə...

Düşür yadıma hərdən
Məktəb həyətində mən
Yoluna göz dikərdim
Qəlbim sızlardı birdən
Sən dərsə gəlməyəndə...

Durub-durub anardım
Gizli-gizli yanardım
Necə dostun içində
Özümü tək sanardım
Sən dərsə gəlməyəndə...

Zəng səsi ucalardı,
Uşaqlar söz alardı.
Gözlərim boş masana.
Fikrim səndə qalardı
Sən dərsə gəlməyəndə...

Dözməyib buna bəzən
Düşüb gah da həvəsdən
Nə danım həqiqəti,
Qaçardım mən də dərsdən
Sən dərsə gəlməyəndə...

## Söylə, yadındamı

Söylə yadındamı o axşam çağı?
Dinməyən mən oldum, dinən sən oldun.
İlk eşqin ocağı alovlanmamış,
Sönməyən mən oldum, sönən sən oldun.

Doymamış sabahın tər nəfəsindən,
Sevdalı quşların təranəsindən,
Sözündən, əhdindən, iradəsindən,
Dönməyən mən oldum, dönən sən oldun.

Pozuldu ilqarın, dəyişdi andın,
Torpaqda alışıb, havada yandın,
Axır gözlərinlə görüb inandın,
Enməyən mən oldum, enən sən oldun.

## Səni unuda bilmərəm

Ay dolanar, il dolanar
Səni unuda bilmərəm.
Könül yanar, can odlanar
Səni unuda bilmərəm.

Yaz üzülə, payız keçə,
İstər gündüz, istər gecə
Necə gözəl gəlib keçə
Səni unuda bilmərəm.

Gözün saxladı sözümü,
Gözün ovladı gözümü
Unutmayınca özümü
Səni unuda bilmərəm....

## Qocalar

Gah çəliyə dirsəklənib dayanar,
Gah daş üstə dincin alır qocalar.
Gah əlini saqqalına aparıb
Dərin-dərin fikrə dalır qocalar.

Ağrıyanda özü doyar özündən,
Yaş süzülər, qəm ələnər gözündən.
Uşaq kimi uşağın da sözündən,
Tez tutulub, tez dalar qocalar.

Yaxın başa, yad ayağa çəkəndə,
Biri bağa, biri dağa çəkəndə,
Gəlin sola, oğul sağa çəkəndə
Ümidini daşa çalır qocalar.

Cavanlığın qoxusunu itirib,
Tay-tuşların çoxusunu itirib,
Gecə yarı yuxusunu itirib,
Sübhə kimi oyaq qalır qocalar.

Can neyləsin, hökmü verən zamandı,
Gözdən düşüb, sandan çıxmaq yamandı.
A yoldaşlar, a qardaşlar, amandı,
Göynətməyin, kövrək olur qocalar.

Əsən külək, yarpaq tökən budaqdı,
Döyən yağış, sönüb keçən ocaqdı,
Necə deyim, iki günlük qonaqdı,
Axşam açıb, sabah solur qocalar.

Ey Hüseyn, gənclik hara, sən hara!...
Dolu gəlir, sü tökülür kənara.
Qocalıqmı çəkən səni olara,
Qocaları yada salır qocalar.

# İdman

## Gənclər arasında Avropa kuboku turnirində beş qadın cüdoçumuz mübarizə aparacaq



İyunun 1-2-də Avstriyada gənc cüdoçular arasında Avropa kuboku turniri keçiriləcək.

Qitə yarışında Azərbaycanı 5 qadın cüdoçu - Şəfəq Həmidova, Vüsalə Kərimova (48 kq), Elvira Əsgərova (52 kq), Ülviyyə Bayramova (57 kq), Südabə Ağayeva (63 kq) təmsil edəcəklər. İndiyədək 28 ölkədən 500-dən çox idmançı turnirdə iştirakını təsdiqləyib.

## Qadın güləşçilərimiz İtaliyada güclərini sınayacaqlar



Mayın 23-dən 25-dək İtaliyanın Sassari şəhərində güləş üzrə Matteo Pellikone Memorialı keçiriləcək.

Turnirdə ölkəmizi qadın güləşçilərimiz təmsil edəcəklər.

Baş məşqçi Aslan Ağayevin rəhbərliyi altında son Avropa çempionatının medalçıları - Alyona Kolesnik (57 kq), Elmira Qəmbərova, Tatyana Omelçenko və Elis Manolova (hamısı 62 kq) İtaliyada da uğur qazanmağa çalışacaqlar.

## Çexiyada boks üzrə Qran-Pridə dörd boksçumuz mübarizə aparır



Mayın 22-də Çexiyada boks üzrə Usti-nad-Labem Qran-Prisi start götürüb.

Dörd gün davam edəcək beynəlxalq turnirdə Azərbaycanın dörd boksçusu mübarizə aparır. Komandamızın üzvləri Elvin Məmişzadə 52, Sərxan Əliyev 63, Lorenzo Sotomayor 69, Alfonso Dominqes 81 kiloqram çəki dərəcələrində medallar uğrunda yarışırlar.

## Çin Qran-Prisinin posterində Azərbaycan cüdoçusu Hidayət Heydərovun da şəkli yer alıb



Beynəlxalq Cüdo Federasiyasının Çinin Hohhot şəhərində keçiriləcək Qran-Pri turniri ilə bağlı hazırladığı posterdə tanınmış cüdo ustaları ilə birgə Azərbaycan idmançısı Hidayət Heydərovun (73 kq) da şəkli yer alıb.

Mayın 23-də start götürən Qran-Pri yarışlarında komandamızın heyətində 7 idmançı, o cümlədən H.Heydərov da mübarizə aparır.

Qeyd edək ki, H.Heydərov mayın 10-12-də Bakıda keçirilmiş "Böyük dəbilqə" turnirinin qalibi olub. Bu onun "Böyük dəbilqə" turnirində əldə etdiyi ilk medal, indiyədək qazandığı ən böyük uğurudur. Cüdoçumuzun sonuncu turnirində qazandığı 1000 xal onu dünya reytinqində bir pillə qaldıra bilib. İndi o, 9-cu sıradadır.

## Azərbaycan batutçuları Rusiyada qızıl medal qazanıblar



Krasnodarda batut gimnastikası üzrə Rusiya çempionatının final yarışları keçirilib.

Rusiyanın 35 regionundan ümumilikdə 600-dən çox idmançının qatıldığı turnirdə Azərbaycan gimnastları da uğurla çıxış ediblər. Belə ki, yarışlarda ölkəmizi təmsil edən böyük gimnastlarımız Ruslan Ağamirov və İlya Qrişunin sinxron proqramda ən yüksək nəticəni göstərərək qızıl medal qazanıblar.

Yarışda çıxış edən gimnastımız Selcan Mahsudova turniri 4-cü, digər təmsilçimiz Hüseyn Abbasov isə 8-ci yerdə başa vurublar.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 422
Nüsxə 3950